*«Təsdiq edilmişdir»*

*"TuranBank" Açıq Səhmdar Cəmiyyəti*

*Müşahidə Şurası iclasının*

*"29" Mart 2013-cü il*

*tarixli protokolu*

*Müşahidə Şurasının sədri*

*F.M.Musayev*

*(imza)*

# "TuranBank" ASC
# Risklərin İdarə Edilməsi
# S İ Y A S Ə T İ

**Bakı şəhəri** **2013-cü il**

Mündəricat

1. Risklərin idarə edilməsi sistemi
2. Risklərin idarə edilməsi siyasətinin məqsəd və vəzifələri
3. Risklərin idarə edilməsi siyasətinin prinsip və standartları
4. Risklərin idarə edilməsinin təşkilati-idarəetmə strukturu
5. Kredit risklərinin idarə edilməsi
6. Bazar və Likvidlik risklərinin idarə edilməsi
7. Əməliyyat, İmic, Strateji və Hüquqi risklərin idarə edilməsi

# 1. Risklərin idarə edilməsi sistemi

1.1. Bu Siyasət, Azərbaycan Respublikasının "Banklar Haqqında Qanununa", Azərbaycan Respublikası Mərkəzi Bankının "Banklarda Risklərin İdarə Olunması Standartlarına", TuranBank ASC-nin "Nizamnaməsinə", "Strateji Planına", "Risklərin İdarə Edilməsi Strategiyasına", "Risklərin İdarə Edilməsi Departamentinin Əsasnaməsinə", Bazel Komitəsinin tövsiyyə və prinsiplərinə eləcədə beynəlxalq təcrübəyə uyğun olaraq hazırlanmışdır.

1.2. Risk, zərərə, itkiyə və ya təhlükəyə yol açabiləcək bir hadisənin ortaya çıxma ehtimalıdır.

1.3. Risklərinin İdarə Edilməsi Sistemi, bütün növ risklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi, ölçülməsi, tənzimlənməsi və onlara dair hesabatlığı əks etdirən prosesdir.

1.4. Risklərin idarə edilməsi üç əsas mərhələdən ibarətdir:

1.4.1. Risklərin müəyyən edilməsi;

1.4.2. Risklərin qiymətləndirilməsi;

1.4.3. Risklərin azaldılması.

1.5. Risklərin müəyyən edilməsi, bankın əməliyyatlarının ətraflı diaqnostikası və qiymətləndirilməsi, həmçinin bütün əməliyyatlara xas olan əsas risklərin müəyyən edilməsi prosesidir.

1.6. Risklərin qiymətləndirilməsi, müəyyən edilmiş risklərin banka təsirinin və bu təsirin yaranma ehtimalının qiymətlədirilməsi prosesidir.

1.7. Risklərin azaldılması, risklərin idarə edilməsi üzrə konseptual əməliyyat modelinin müəyyən edilməsi və həyata keçirilməsi üçün tələb olunan tədbirlərin planlaşdırılması prosesidir.

1.8. Bank aşağıdakı risk qruplarını tanıyır:

1.8.1. Maliyyə riskləri;

1.8.2. Biznes riskləri.

1.9. Maliyyə riskləri aşağıdakılardır:

1.9.1. Bazar riskləri;

1.9.2. Likvidlik riskləri;

1.9.3. Kredit riskləri.

1.10. Biznes riskləri aşağıdakılardır:

1.10.1. Əməliyyat riskləri;

1.10.2. Strateji risklər;

1.10.3. İmic riskləri;

1.10.4. Hüquqi risklər.

1.11. Bazar riski, faiz dərəcəsi, xarici valyuta məzənnəsi və kapitalın (həmçinin bazar qiymətli kağızların) qiymətlərindəki enib-qalxmaların nəticəsində bank aktivinin bazar dəyərinin dəyişməsindən itkiyə səbəb ola bilən ehtimaldır.

1.12. Likvidlik riski, bankın öz öhdəliklərini (balansdankənar öhdəliklər, kreditin verilməsi haqqında razılaşmalar, kredit xətləri və.s. daxil edilməklə) vaxtında yerinə yetirmək məqsədilə vaxtında və məqbul qiymətə (zərər törətmədən) kifayət qədər nağd və ya ona ekvivalent məbləğdə müxbir hesablarında qeyri-nağd vəsait əldə etmək qabiliyyətidir.

1.13. Kredit riski, aktivin dəyərini itirməsinə və yaxud dəyərsiz hala düşməsinə səbəb olan, borcalanın maliyyə vəziyyətinin pisləşməsi kimi hadisəsindən (balansdankənar hadisələr daxil olmaqla) yaranan zərər ehtimalıdır.

1.14. Əməliyyat riski, qeyri-adekvat və ya uğursuzluqla nəticələnmiş bankdaxili proseslərdən, insanlardan, sistemlərdən və bankdan kənar hadisələrin baş verməsindən yaranan riskdir.

1.15. Texnoloji risk, informasiya və kommunikasiya sistemlərinin düzgün qurulmaması, çalışmaması və ya səhvləri nəticəsində yaranan riskdir.

1.16. İnformasiya və şəbəkə təhlükəsizliyi, informasiya və ona xidmət edən infrastrukturun sahibi və ya istifadəçilərinə ziyan vurmağa səbəb olan təbii və ya süni xarakterli, təsadüfi və ya qəsdli təsirlərdən informasiya və ona xidmət edən infrastrukturun təhlükəsizliyinin təmin olunmasına yönəlmiş tədbirlər kompleksidir.

1.17. Strateji risk, bankın fəaliyyət və inkişaf strategiyasını müəyyən edən qərarların qəbul olunması zamanı edilmiş səhvlər (çatışmamazlıqlar), o cümlədən bankın fəaliyyətinə təhlükə yarada bilən mümkün risklərin nəzərə alınmaması və ya lazımınca nəzərə alınmaması, rəqiblərə nisbətən üstünlük əldə etmək mümkün olan fəaliyyət növlərinin perspektiv istiqamətlərinin seçilməsi zamanı əsaslandırılmanın düzgün edilməməsi və qarşıya qoyulmuş strateji məqsədlərə çatmaq üçün müvafiq resursların (maliyyə, texniki, insan) və təşkilati tədbirlərin (qərarların) olmaması nəticəsində zərərin baş verməsi, eyni zamanda qəbul olunmuş strateji planın yerinə yetirilməməsi və ya qarşıya qoyulmuş strateji hədəflərdən yayınıb basqa istiqamətdə inkişaf halının aşkarlanması riskidir.

1.18. İmic riski, cəmiyyətdə Bankın maliyyə dayanıqlığı, təklif etdiyi xidmətlərinin keyfiyyəti və ümumiyyətlə fəaliyyəti haqqında neqativ təsəvvürün formalaşması nəticəsində zərərin baş verməsi riskidir.

1.19. Hüquqi risk, müqavilələrin bankın maraqlarına uyğun bağlanmaması, qanunvericilikdə olan əlavə və dəyişikliklərin vaxtında nəzərə alınmaması, eləcədə bankın bağladığı bütün növ müqavilələrdə qanunun müvafiq tələblərindən kənarlaşma halından yaranan riskdir.

## 2. Risklərin idarə edilməsi siyasətinin məqsəd və vəzifələri

2.1. Risklərin idarə edilməsi siyasətinin məqsədləri aşağıdakılardır:

2.1.1. Risk və gəlirlik arasında nisbətin idarə edilməsi bank üçün strateji məqsəddir;

2.1.2. Üzərinə məqbul sayılan səviyyədən artıq risklər götürməyən bank imicinin yaradılması və qorunması;

2.1.3. Bankın riskə məruzluq səviyyəsinin Müşahidə Şurası tərəfindən müəyyən olunmuş limit daxilində olması;

2.1.4. İdarə Heyəti tərəfindən risk doğuran fəaliyyətlə bağlı verilən qərarların bankın biznes strategiyası və məqsədlərinə uyğun olması;

2.1.5. Bank zərurət olmadıqda və kapitalı imkan verdiyindən artıq risk etmir;

2.1.6. Bank tərəfindən üzərinə götürülmüş öhdəliklərin şərtsiz icra olunmasının təmin edilməsi;

2.1.7. Bankın yalnız məqbul və onun mövcud biznes həcminə adekvat olan riskləri öz üzərinə götürməsinin təmin olunması;

2.1.8. Bankın adekvat aktivlər və passivlər portfelinin formalaşdırılması;

2.1.9. Bank fəaliyyətinin həyata keçirilməsi prosesində meydana çıxan risklərin minimuma endirilməsi əsasında Bankın aktivlərinin və kapitalının maksimal səviyyədə qorunub saxlanmasının təmin edilməsi;

2.1.10. Bankın mənfəətliliyini təhlükə altına qoymamaq üçün riskləri məhdudlaşdırmaq.

2.2. Risklərin idarə edilməsi siyasətinin vəzifələri aşağıdakılardır:

2.2.1. Bankın inkişaf strategiyasının həyata keçirilməsinin təmin olunması;

2.2.2. Məsul şəxslər tərəfindən müvafiq limitlər və səlahiyyət bölgülərinə riayət olunmasının təmin edilməsi;

2.2.3. Böhran şəraitində Bankın normal fəaliyyətinin təmin edilməsi;

2.2.4. Bankın uzun müddət ərzində həddən artıq riskə məruz qalmasına yol verilməməsi;

2.2.5. Aktiv-passivlərin idarə edilməsi üzrə səmərəli sistemin yaradılması;

2.2.6. Bankın aktiv və passivlərinin lazımi səviyyədə diversifikasiyasının təmin edilməsi;

2.2.7. Yeni bank məhsullarının yaradılmasına rəy verilməsi;

2.2.8. Struktur bölmələrin mövcud Daxili Nəzarət Sistemlərinin adekvatlığının ölçülməsi;

2.2.9. Daxili nəzarət mexanizmlərinin yaradılması.

## 3. Risklərin idarə edilməsi siyasətinin prinsip və standartları

3.1. Risklərin idarə edilməsi siyasətinin prinsip və standartları aşağıdakı qaydada müəyyən edilir:

3.1.1. Bankda mövcud olan bütün xidmətlər və məhsullar üzrə iş prosedurlarının müvafiq daxili sənədlərdə əks olunması;

3.1.2. Bankda böhran şəraitində risklərin idarə edilməsi prosedurlarının mövcud olması;

3.1.3. Risklərin idarə edilməsində "stress-test" metodologiyasından istifadə edilməsi;

3.1.4. Bank üçün məqbul sayılan risk səviyyəsinə uyğun olmayan, əvvəlcədən araşdırılmamış və təsnifləşdirilməmiş risklərin əmələ gəlməsinə şərait yaradan əməliyyatların aparılmasına yol verilməməsi;

3.1.5. Bankın hər hansı bir fəaliyyət növü ilə bağlı olan risklərin Bankın bütün fəaliyyətinə təsirinin minimallaşdırılması;

3.1.6. Hər hansı bank əməliyyatının daxili sənədlərlə nəzərdə tutulmuş tələblərə uyğun olmadığı halda həmin əməliyyatın aparılmasına yol verilməməsi;

3.1.7. Bankın hər hansı bir fəaliyyət növü üzrə risk səviyyəsinin bankın digər fəaliyyət növləri və bank biznesinin ümumi risk səviyyəsindən artıq dərəcədə fərqlənməməsinin təmin edilməsi;

3.1.8. Risklərin idarə edilməsi üzrə prosedur və mexanizmlərin fasiləsiz və daimi icra olunması;

3.1.9. Risklərin idarə edilməsi sisteminin ictimaiyyətə şəffaf və aydın çatdırılması;

3.1.10. Müştərilər və partnyorlarla münasibətlərin xüsusiyyətlərindən asılı olaraq, müxtəlif müştəri və ya partnyor qrupları üçün məqbul risk səviyyələrinin müəyyən edilməsi;

3.1.11. Hər növ əməliyyatların aparılması və qərarların qəbul edilməsi üzrə limitlərin və səlahiyyətlər bölgüsünün müəyyən edilməsi;

3.1.12. Bank öz fəaliyyətində kapital qoyuluşunun mümkün ola bilən variantlarından aşağıdakıları seçir:

3.1.12.1. Riski minimal və ya qəbul oluna bilən səviyyədə saxlamaqla maksimal effektiv nəticənin (uduş, gəlir, mənfəət) olması (maksimal qazanc üsulu);

3.1.12.2. Ehtimal olunan nəticənin investorlar üçün qənaətbəxş olması (optimal nəticə üsulu).

3.1.13. Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi məqsədilə Bankın infrastrukturundan istifadə olunmasının qarşının alınması;

3.1.14. Daxili nəzarət sisteminin effektiv fəaliyyəti üçün onun əsas iştirakçılarının, o cümlədən menecmentin, Daxili Auditin və Risklərin İdarə Olunması Departamentinin paralel olaraq öz funksiya və səlahiyyətləri çərçivəsində fəaliyyət göstərməsi.

## 4. Risklərin idarə edilməsinin təşkilati-idarəetmə strukturu

4.1. Bankda risklərin idarə edilməsi sahəsində fəaliyyət göstərən orqanların və struktur bölmələrin təşkilati-idarəetmə strukturu aşağıdakı səviyyələrə malikdir:

4.1.1. Strateji səviyyə: Müşahidə Şurası, Audit Komitəsi və İdarə Heyəti

4.1.2. Makro səviyyə: Daxili Audit Departamenti, RİED, bankın komitələri və orta səviyyə menecerlər;

4.1.3. Mikro səviyyə: Bankın ayrı-ayrı əməkdaşları.

4.2. Bankın Müşahidə Şurasının səlahiyyətlərinə daxildir:

4.2.1. Bankın bütün siyasətlərinin o cümlədən Risklərin İdarə Edilməsi Siyasətinin təsdiq edilməsi;

4.2.2. Bankın bütün qaydalarının o cümlədən ayrı-ayrı risklərin idarə edilməsi qaydalarının təsdiq edilməsi;

4.2.3. Bankın kapital ehtiyatlarının yaradılması haqqında qərarın qəbul edilməsi;

4.2.4. Bankın əlaqəli şəxsləri və qanunvericilik ilə nəzərdə tutulmuş hallarda onların adından fəaliyyət göstərən şəxslərlə əqdlərin təsdiq edilməsi;

4.2.5. Audit Komitəsi istisna olmaqla bankın bütün komitələrinin yaradılması və ləğvi;

4.2.6. Audit Komitəsinin Əsasnaməsi istisna olmaqla bankın bütün komitələrinin o cümlədən Risklərin İdarə Edilməsi Komitəsinin əsasnamələrinin təsdiq edilməsi;

4.2.7. Bankın əməliyyatları üzrə limitlərin müəyyən edilməsi və bu səlahiyyətin Bankın Risklərin İdarə Edilməsi Komitəsinə verilməsi;

4.2.8. Bankın balansından ümidsiz aktivlərin silinməsi haqqında qərarın qəbul edilməsi.

4.3. Bankın Audit Komitəsinin səlahiyyətlərinə daxildir:

4.3.1. Bankın audit siyasətinin və strategiyasının müəyyən edilməsi;

4.3.2. Daxili audit planlarının təsdiq edilməsi və Bankın Daxili Audit Departamentinin fəaliyyətinə nəzarətin həyata keçirilməsi;

4.4. Bankın İdarə Heyətinin səlahiyyətlərinə daxildir:

4.4.1. Risklərin idarə edilməsinin ayrı-ayrı alətlərinin tətbiqi üzrə təlimatların, habelə Bankın struktur bölmələrinin əsasnamələrinin təsdiqi;

4.4.2. Bankın risklərin qəbul edilməsi, onların İT vasitələri və s. ilə təmin edilməsi ilə bağlı cari fəaliyyətinin təşkili və təmin edilməsi;

4.4.3. Bankın risklərin idarə edilməsi sahəsində siyasətinin formalaşdırılması, müəyyən edilmiş qaydada Müşahidə Şurasına baxılmağa çıxarılması və təsdiq edilməsi;

4.4.4. Risklərin idarə olunması fəaliyyətinə dair təsdiq olunmuş əsas effektivlik göstəricilərinin yerinə yetirilməsinin təmin edilməsi;

4.4.5. Bankın funksional struktur bölmələrinin qarşılıqlı əlaqəsinin təşkilinin təmin edilməsi;

4.4.6. Risklərin idarə edilməsinin idarə orqanları tərəfindən təsdiq edilmiş əsas prinsiplərinə riayət edilməsi məqsədilə Bankın risklərin idarə edilməsi qaydalarını və prosedurlarını müəyyən edən daxili sənədlərinin qəbulunun təmin edilməsi;

4.4.7. Bankın risklərin idarə edilməsi üzrə səlahiyyətlərinin və məsuliyyətinin müxtəlif səviyyədən olan bölmələrin rəhbərləri arasında bölüşdürülməsi, onların zəruri ehtiyatlarla təmin edilməsi, qarşılıqlı əlaqə və hesabatlığın təqdim olunması qaydasının müəyyən edilməsi;

4.4.8. Bankın pərakəndə biznesin kredit risklərinin optimallaşdırılması məsələləri üzrə tənzimlənməsi, modellərin parametrlərinin təshihi, kreditləşdirmə texnologiyalarının təsdiq edilməsi, risklərin idarə edilməsinin Bank tərəfindən müəyyən edilmiş vahid standartlarının saxlanması;

4.4.9. Bankda risklərin idarə edilməsi sisteminə nəzarətin həyata keçirilməsi.

4.5. Bankın Daxili Audit Departamentinin səlahiyyətləri:

4.5.1. Daxili Nəzarət Sisteminin fəaliyyətinin effektivliyinə fasiləsiz nəzarət olunması;

4.5.2. Risklərin İdarə Edilməsi Sisteminin fəaliyyətinin effektivliyinə fasiləsiz nəzarət olunması.

4.5.3. Risklərin İdarə Edilməsi Sisteminin adekvatlığının monitorinq olunması.

4.6. Bankın Risklərin İdarə Edilməsi Komitəsinin (RİEK) səlahiyyətləri:

4.6.1. Riskləri idarəetmə sahəsində vahid standartların, prinsiplərin və yanaşmaların bəyənilməsi;

4.6.2. Bankın əməliyyatları üzrə limitlər sisteminin işlənilməsi;

4.6.3. Digər komitələrin fəaliyyətinin koordinasiyası;

4.6.4. Limitlər sistemi daxil olmaqla risklərin idarə edilməsi qaydalarının və s. bəyənilməsi;

4.6.5. Bankın risklərinin vəziyyəti barədə müntəzəm hesabatların nəzərdən keçirilməsi;

4.6.6. Bankın qəbul etdiyi risk növləri üzrə iqtisadi kapitalın paylanması;

4.6.7. Risklərin idarə edilməsi üzrə işlərin vəziyyətinin ümumi monitorinqi;

4.6.8. Bankda risklərin idarə edilməsi sahəsində fəaliyyətin təkmilləşdirilməsi üzrə planların işlənilməsi və onların həyata keçirilməsinə nəzarət.

4.6.9. Digər komitələrin səlahiyyətləri:

4.6.9.1. Kredit Komitəsi, kreditlərin təsdiqlənməsini və idarə edilməsini yerinə yetirir;

4.6.9.2. Aktiv və Passivlərin İdarəedilməsi Komitəsi, bankın maliyyə vəsaitlərinin bölüşdürülməsinin təsdiqləməsini və idarə edilməsini yerinə yetirir;

4.6.9.3. İnformasiya Texnologiyaları Komitəsi, bankda informasiya texnologiyalarının idarə edilməsini yerinə yetirir.

4.7. Risklərin idarə edilməsi sisteminin gündəlik iş fəaliyyətini Risklərin İdarə Edilməsi Departamenti həyata keçirir.

4.8. Risklərin İdarə Edilməsi Departamentinin (RİED) vəzifələri:

4.8.1. Bankda risklərin idarə edilməsi işinin təşkil edilməsi;

4.8.2. Bankın məruz qaldığı bütün növ risklərin tanınması, qiymətləndirilməsi, ölçülməsi, azaldılması və hesabatlığı proseslərinə nəzarətin edilməsi;

4.8.3. Risklərin idarə edilməsi və risk siyasəti ilə bağlı təkliflərin verilməsi;

4.8.4. Risklərin idarə edilməsi üzrə daxili qaydaların hazırlanması və mütəmadi olaraq yenidən baxılması;

4.8.5. Risklərin idarə edilməsi prosesinin həyata keçirilməsi məqsədi ilə digər struktur bölmələrdən tələb olunan məlumatların tərkibinin müəyyənləşdirilməsi və bu məlumatların toplanması;

4.8.6. Alınmış məlumatların təhlili və müxtəlif sahələrdə risklərin müəyyən edilməsi və bu risklərin vaxtaşırı qiymətləndirilməsi;

4.8.7. Yeni məhsulların yaradılmasına rəy və dəstək verilməsi;

4.8.8. Daxili Nəzarət Sisteminin təkmilləşdirilməsi üçün təkliflərin verilməsi;

4.8.9. Risklər və onların meylləri barədə, həmçinin onların monitorinqi və nəzarəti barədə RİEK və İdarə Heyətinə mütəmadi olaraq məlumatların təqdim edilməsi;

4.8.10. Mütəmadi olaraq risklərin idarə edilməsi sahəsindəki yeniliklər barədə beynəlxalq təcrübənin öyrənilməsi və təkliflərin hazırlanıb RİEK və İdarə Heyətinə təqdim edilməsi;

4.8.11. Bütün növ əməliyyatlar üzrə limitlərin hesablanması və onlara dair müvafiq dəyişikliklərin edilməsi barədə təkliflərin RİEK və İdarə Heyətinə təqdim edilməsi;

4.8.12. Risklərin idarə edilməsi prosesinin müxtəlif mərhələlərində əldə edilmiş nəticələri əks etdirən dövrü hesabatların RİEK və İdarə Heyətinə təqdim edilməsi;

4.8.13. Bankın digər struktur bölmələri ilə birlikdə föqəladə hallar planının hazırlanması və Müşahidə Şurası tərəfindən təsdiq olunduqdan sonra föqəladə hallarda risklərin aradan qaldırılmasında iştirakı zəruri hesab edilən hər bir əməkdaşın bu plan barədə məlumatlandırılması;

4.8.14. Müştərilərə, biznes münasibətləri olan tərəflərə, qanuni və tənzimləyici qurumlara qarşı xidmət və məsuliyyətlərin kəsintiyə düşməsinə səbəb olabiləcək yanğın, zəlzələ, sel, fırtına, sistem kəsintisi, infrastrukturun çökməsi və terrorist hücumları kimi təhlükələr və təhlükə sonrası meydana gələ biləcək ssenarilərin müəyyən edilməsi və biznesin davamlılığının təmin edilə bilməsi üçün dövri olaraq testləşdirilməsi

4.8.15. Risklərin idarə edilməsi işində bankın bütün struktur bölmələrinə metodiki yardımın göstərilməsi, habelə risklərin idarə edilməsi üzrə qəbul edilmiş siyasət və qaydalarla əməkdaşları tanış etmək məqsədilə bankdaxili seminarların keçirilməsi;

4.8.16. Bankın kapitalının kəmiyyət və keyfiyyət göstəricilərinə, kapitalın adekvatlığına dair tələblərə riayət edilməsinə nəzarətin həyata keçirilməsi;

4.8.17. Bankın bütün səviyyələrində sorğuların həyata keçrilməsi.

4.9. Departamentin strukturu Bankın təşkilatı və idarəetmə strukturu ilə müəyyən edilir və aşağıdakı şöbələrdən ibarətdir:

4.9.1. Bazar və Likvidlik risklərinin idarə edilməsi şöbəsi;

4.9.2. Kredit risklərinin strateji idarə edilməsi şöbəsi;

4.9.3. Əməliyyat, İmic və Strateji risklərin idarə edilməsi şöbəsi;

4.9.4. Uyğunluq şöbəsi;

4.9.5. Kreditlərin monitorinqi şöbəsi;

4.10. Bu şöbələrin fəaliyyəti Risklərin İdarə Edilməsi Departamentinin Əsasnaməsi ilə tənzimlənir.

## 5. Kredit risklərinin idarə edilməsi

5.1. Kredit risklərinin idarə edilməsi prosesi aşağıdakı mərhələləri özündə əks etdirir:

5.1.1. Strateji mərhələ;

5.1.2. Əməliyyat mərhələsi.

5.2. Strateji mərhələ özü isə aşağıdakı addımları ozündə cəmləşdirir:

5.2.1. Kredit risklərinin tanınması;

5.2.2. Kredit risklərinin qiymətləndirilməsi.

5.3. Əməliyyat mərhələsi özü isə aşağıdakı addımları özündə cəmləşdirir:

5.3.1. Kredit risklərinin ölçülməsi;

5.3.2. Kredit risklərinin azaldılması;

5.3.3. Kredit risklərinin hesabatları;

5.3.4. Kredit risklərinə nəzarət.

5.4. Bankda kredit riskinin idarə edilməsi məqsədilə kəmiyyət və keyfiyyət göstəriciləri əsasında aşağıdakı analitik metodlardan istifadə edilir:

5.4.1. Kredit portfelinin diversifikasiyası hesabatı və təhlili;

5.4.2. "Risk Əmsalları" hesabatı və təhlili;

5.4.3. Kredit Monitorinq Şöbəsinin monitorinq aktlarının analizi;

5.4.4. Kredit Memorandumlarının təkrar analizi;

5.4.5. Kredit Memorandumundakı məlumatlar ilə Kredit Monitorinq aktındakı məlumatların müqayisə edilməsi;

5.4.6. Filialın kredit monitorinqi aktlarının analizi;

5.4.7. Kredit Departamentinin monitorinq aktlarının analizi;

5.4.8. Risk Altındakı Portfel hesabatı və təhlili;

5.4.9. Kredit portfeli üzrə stress-testlərin keçirilməsi və nəticələrinin təhlili;

5.4.10. Vintaj analizlərin aparılması. Vaxtı keçmiş və Qeyri-işlək kreditlərin davranış analizi və nəticələri əsasında adekvat tövsiyyələrin verilməsi;

5.4.11. Müştəri qrupları üçün "Məcmu risk səviyyəsi" metoduna əsasən kredit risklərinin hesablanması və məqbul risk səviyyələrinin müəyyən edilməsi;

5.4.12. "Defolta Məruz Dəyər" metoduna əsasən kredit risklərinin hesablanması;

5.4.13. Vaxtı keçmiş və Qeyri-işlək kreditlərin məhsul, filial və kredit mütəxəssisi üzrə konsentrasiyasının analizi;

5.4.14. Bir təşkilat və ya qurum üzərindən vaxtı keçmiş və qeyri-işlək kreditlərin konsentrasiyasının analizi;

5.5. Bankda həmçinin kredit risklərinin tənzimlənməsində limitlər sistemi tətbiq edilir. Limitlər sisteminin tətbiqi kredit risklərinin minimallaşdırılması baxımından əhəmiyyətlidir. Kredit risklərinin tənzimlənməsi və nəzarəti üzrə aşağıdakı limit növləri mövcuddur:

5.5.1. Kreditlərin diversifikasiyası üzrə;

5.5.1.1.Kreditlərin məbləğ olaraq konsentrasiyası;

5.5.1.2.Kreditlərin müddət olaraq konsentrasiyası;

5.5.1.3.Kreditlərin məhsul növü olaraq konsentrasiyası;

5.5.1.4.Kreditlərin iqtisadi sektor olaraq konsentrasiyası;

5.5.1.5.Kreditlərin coğrafi region olaraq konsentrasiyası;

5.5.1.6.Kreditlərin təminat növü olaraq konsentrasiyası;

5.5.1.7.Kreditlərin valyuta olaraq konsentrasiyası;

5.5.1.8.Kreditlərin müştəri tipi olaraq konsentrasiyası.

5.5.2. 'Risk Əmsalları' hesabatı üzrə:

5.5.2.1. Əlaqəli borcalanlar qrupu uzrə kreditin maksimum məbləği;

5.5.2.2. Aidiyyatı olan şəxslərə verilən kreditin maksimum məbləği;

5.5.2.3. İri kreditlərin məcmu kapitala nisbəti;

5.5.2.4. Vaxtı keçmiş kredit əmsalı;

5.5.2.5. Qeyri-işlək kredit əmsalı;

5.5.2.6. Açıq kredit riski əmsalı;

5.5.2.7.Təminatla örtülmə əmsalı.

5.5.3. Digər nisbətlər üzrə:

5.5.3.1.Kreditlərin ümumi həcminin depozitlərin həcminə nisbəti;

5.5.3.2.Kreditlərin ümumi həcminin maliyyə institutlarından cəlb edilmiş vəsaitlərin cəminə nisbəti;

5.5.3.3.Kreditlərin ümumi həcminin məcmu kapitala nisbəti;

5.6. Kredit risklərinin azaldılması yolları aşağıdakılardır:

5.6.1. 'Maliyyə Analizi Aləti'-nin tətbiqi;

5.6.2. 'Kredit Skorinq Sistemi'-nin tətbiqi;

5.6.3. 'Risk Reytinq Sistemi'-nin tətbiqi;

5.6.4. Kredit portfelinin diversifikasiyası;

5.6.5. Erkən xəbərdarlıq sistemi;

5.6.6. Kreditlərin monitorinqi.

## 6. Bazar və Likvidlik risklərinin idarə edilməsi

6.1. Bazar və Likvidlik risklərinin idarə edilməsi prosesi aşağıdakı mərhələləri özündə əks etdirir:

6.1.1. Strateji mərhələ;

6.1.2. Əməliyyat mərhələsi.

6.2. Strateji mərhələ özü isə aşağıdakı addımları ozündə cəmləşdirir:

6.2.1. Bazar və Likvidlik risklərinin tanınması;

6.2.2. Bazar və Likvidlik risklərinin qiymətləndirilməsi.

6.3. Əməliyyat mərhələsi özü isə aşağıdakı addımları ozündə cəmləşdirir:

6.3.1. Bazar və Likvidlik risklərinin ölçülməsi;

6.3.2. Bazar və Likvidlik risklərinin azaldılması;

6.3.3. Bazar və Likvidlik risklərinin hesabatları;

6.3.4. Bazar və Likvidlik risklərinə nəzarət.

6.4. Bankda bazar riskinin idarə edilməsində aşağıdakı qiymətləndirmə və təhlil metodları tətbiq olunur:

6.4.1. Açıq valyuta mövqeyinin hesablanması və təhlili;

6.4.2. "Riskə Məruz Dəyər" modelinə əsasən valyuta riskinin hesablanması və təhlili;

6.4.3. Valyuta riskinin qiymətləndirilməsi üzrə stress-testlərin keçirilməsi və nəticələrinin təhlili;

6.4.4. Faiz Mövqeyi hesabatının analizi;

6.4.5. "Qəp analizi" (boşluq analizi) metoduna əsasən faiz dərəcəsi riskinin hesablanması və təhlili;

6.4.6. "Durasiya qəp" metoduna əsasən faiz dərəcəsi riskinin hesablanması və təhlili;

6.4.7. Aktiv və Öhdəliklərin ödəniş müddətləri üzrə təhlili;

6.4.8. Faiz dərəcəsi riskinin qiymətləndirilməsi üzrə stress-testlərin keçirilməsi və nəticələrinin təhlili.

6.5. Bankda likvidlik riskinin təhlili üçün aşağıdakı likvidlik göstəriciləri üzrə təhlillər aparılır:

6.5.1. Ani likvidlik əmsalının hesablanması və təhlili;

6.5.2. Cari likvidlik əmsalının hesablanması və təhlili;

6.5.3. Uzun müddətli likvidlik hesabatının hazırlanması və təhlili;

6.5.4. Ödəniş müddətləri üzrə aktiv və öhdəliklərin "qəp analizi" metodu ilə hesablanması və təhlili;

6.5.5. Likvidliyin qiymətləndirilməsi üzrə stress-testlərin keçirilməsi və nəticələrin təhlili.

6.6. Bazar və likvidlik risklərinin səmərəli tənzimlənməsində və məqbul səviyyədə saxlanmasında Bank kompleks tədbirlərdən və alətlərdən istifadə edir.

6.7. Bazar risklərinin azaldılması yolları aşağıdakılardır:

6.7.1. Xarici valyuta üzrə aktiv və passivlərin düzgün idarə edilməsi;

6.7.2. Sabit və dəyişkən faiz dərəcələri üzrə aktiv və passivlərin düzgün idarə edilməsi;

6.7.3. Valyuta üzrə törəmə əməliyyatlar;

6.7.4. Faiz üzrə törəmə əməliyyatlar;

6.7.5. Qiymətli kağızların qiymətləri üzrə törəmə əməliyyatlar;

6.8. Likvidlik risklərinin azaldılması yolları aşağıdakılardır:

6.8.1. Müddətlər üzrə aktiv və passivlərin düzgün idarə edilməsi;

6.8.2. Boşluq analizlərinin aparılması.

6.9. Bankda həmçinin kapital risklərinin tənzimlənməsində limitlər sistemi tətbiq edilir. Limitlər sisteminin tətbiqi kapital risklərinin minimallaşdırılması baxımından əhəmiyyətlidir. Kapital risklərinin tənzimlənməsi və nəzarəti üzrə aşağıdakı limit növləri mövcuddur:

6.9.1. Birinci dərəcəli kapitalın adekvatlığı əmsalı;

6.9.2. Məcmu kapitalın adekvatlığı əmsalı;

6.9.3. Leverec əmsalı;

6.9.4. Kapitalın ödəməmə əmsalı I;

6.9.5. Kapitalın ödəməmə əmsalı II.

## 7. Əməliyyat, İmic Strateji və Hüquqi risklərinin idarə edilməsi

7.1. Bankda əməliyyat, imic, strateji və hüquqi risklərin idarə edilməsi prosesi aşağıdakı mərhələləri özündə əks etdirir:

7.1.1. Strateji mərhələ;

7.1.2. Əməliyyat mərhələsi.

7.2. Strateji mərhələ özü isə aşağıdakı addımları ozündə cəmləşdirir:

7.2.1. Əməliyyat, imic, strateji və hüquqi risklərin tanınması;

7.2.2. Əməliyyat, imic strateji və hüquqi risklərin qiymətləndirilməsi.

7.3. Əməliyyat mərhələsi özü isə aşağıdakı addımları ozündə cəmləşdirir:

7.3.1. Əməliyyat, imic, strateji və hüquqi risklərin ölçülməsi;

7.3.2. Əməliyyat, imic, strateji və hüquqi risklərin azaldılması;

7.3.3. Əməliyyat, imic, strateji və hüquqi risklərin hesabatları;

7.3.4. Əməliyyat, imic, strateji və hüquqi risklərinə nəzarət.

7.4. Bankda biznes risklərinin müəyyən edilməsi mərhələsi, müəyyən edilmiş risk kateqoriyaları üzrə baş vermiş və gözlənilən əməliyyat riskləri və itkiləri haqqında məlumatların aşkar olunması prosesini əhatə edir. Bankda baş vermiş və gözlənilən əməliyyat risklərinin müəyyən olunması aşağıdakı metodlar vasitəsilə müəyyən edilir:

7.4.1. Bankın struktur bölmələrinə göndərilən sorğular;

7.4.2. Bankın struktur bölmələrinin rəhbərləri və əməkdaşları ilə intervyuların keçirilməsi;

7.4.3. Biznes Proseslərinin Monitorinq edilməsi və təhlili;

7.4.4. Daxili Audit Bölməsinin hesabatlarını analiz etmək;

7.4.5. Əməliyyatlarda "4 göz" prinsipinin pozulduğu məqamları izləmək;

7.4.6. Daxili qaydaların əməliyyat riski noqteyi nəzərdən qiymətləndirilməsi;

7.4.7. Gizli Müştəri Sorğusu hesabatının analizi;

7.4.8. Daxili nəzarət sistemləri hesabatının incələnməsi və təhlili;

7.4.9. Dövrü mətbuatın və məlumat axınlarının izlənilməsi;

7.4.10. Müqavilələrin qüvvədə olan qanunvericiliyə (dəyişikliklər nəzərə alınmaqla) və Bankın xeyrinə uyğunluğunun təhlili;

7.4.11. Müqavilə öhdəliklərinə riayət olunmasının təhlili;

7.4.12. Qanunvericilikdə olan əlavə və dəyişikliklərin vaxtında nəzərə alınmaması nəticəsində yaranan problemlərin təhlili.

7.4.13. Strateji planın icrasının adekvatlığının ölçülməsi baxımından - strateji plan qəbul olunduğu zaman bu planın yerinə yetirilməsi üçün kifayət qədər insan resurslarının və kadr ehtiyatlarının olması, cari və planlaşdırılan satış şəbəkəsinin yetərliliyi, biznesin

inkişafı strategiyasının və maliyyə potensialının nəzərə alınıb-alınmadığının araşdırılması.

7.5. Biznes risklərinin effektiv şəkildə idarə edilməsi və qiymətləndirilməsi məqsədilə Bankın məruz qaldığı əməliyyat riskləri barəsində məlumatların analitik məlumat bazası sistemində qeydiyyatının aparılması.

7.6. Bank biznes risklərinin səviyyəsinin yüksəlmə ehtimalının əvvəlcədən müəyyən etmək və qarşısını almaq, həmçinin səmərəli idarə edilmək məqsədilə əməliyyat risklərinin ayrı-ayrı kateqoriyaları üzrə erkən xəbərdarlıq funksiyasını yerinə yetirən risk gostəriciləri sistemindən istifadə edilməsi, Bankın biznes prosesləri üzrə yaradılan risk gostəricilərinin müntəzəm monitorinqinin keçirilməsi və nəzarəti.

7.7. Bank proqram təminatının, kompyuter sistemlərinin, avadanlıqlarının və proqramlarının düzgün çalışmaması səbəbindən yaranan texnoliji risklərin təhlili.

7.8. İT və Proses risklərinin qiymətləndirilməsi məqsədilə Help Desk modulunda qeydə alınmış halların təhlili.

7.9. Bankın fəaliyyətinin fasiləsizliyinin təmin olunmasına istiqamətlənmiş beynəlxalq təcrübəyə əsaslanan Biznesin Davamlılığı Planına (Fovqəladə Hallar Planı) uyğun insan amilindən asılı olan (terror aktı, tətil və sair), texnogen (elektrik enerjisinin kəsilməsi, İT sistemlərinin işində qusurlar və sair) və təbii hadisələr (yanğın, subasma, qasırğa və sair) zamanı düzgün hərəkət alqoritmini müəyyən edən qaydanın hazırlanması və itkiləri minimum səviyyədə saxlamaqla fəailiyyətin tez bir zaman kəsiyində bərpasının təmin edilməsi.

7.10. Biznes risklərinin azaldılması yolları aşağıdakılardır:

7.10.1. “4 Göz” Prinsipinin tətbiqi;

7.10.2. Avtomatlaşdırılmış əməliyyat-informasiya sistemi;

7.10.3. Mütəmadi olaraq bank daxili və xarici təlimlər;

7.10.4. Əməliyyat riskləri üzrə stress-testlərin keçirilməsi.

7.10.5. Qanunverici bazadakı dəyişikliklərə cari nəzarətin həyata keçirilməsi və daxili normativ sənədlərin vaxtında dəyişdirilməsi, həmçinin dəyişiklik barədə məlumatların öz işçilərinə çatdırılması işini təşkil etmək.

7.10.6. İşçilərin qanunvericilikdəki dəyişikliklər barədə məlumatlandırılması, qanunvericilik bazasının dəyişiklilərinin qısa xülasəsini tərtib etməklə elektron paylama sisteminin təşkili yolu ilə, həyata keçirilməsi.

7.11. İT və Proses risklərini azarltmaq üçün bank aşağıdakıları edir:

7.11.1. Bankın bütün Biznes və İT proseslərinin xəritəsinin hazırlanması;

7.11.2. Bank informasiyasiının klassifikasiya (konfidensial, xidməti, açıq tipli) edilməsi;

7.11.3. Bankda İT standartlarının və nəzarət çərçivəsinin tətbiqi;

7.11.4. Bankın İT üzrə infrastruktur, texnoloji standartlarının (Server və kompüterlərin pasportu, istifadəçilərin iş yerləri və kommunikasiya avadanlıqları) hazırlanması;

7.11.5. İT risklərinin minimallaşdırılması istiqamətində konkret nəzarət mexanizmlərinin, standartlaşma-prosedurlaşma və riayət, təhlükəsizlik üzrə səlahiyyət bölgüsü, texniki-proqram komplekslərinin təkmilləşdirilməsi, nəzarət alətləri və s. tətbiqi;

7.11.6. Avtomatlaşdırılmış həllərin seçiminə dair tələblərin, Bankın spesifikasına, tələblərinə, qaydalarına uyğun, etibarlı, məhsuldar, inteqrasiya olunan, genişlənə bilən və audit olunma imkanlı, təhlükəsiz, istifadə asanlığı, sənədləşməsi və s. kimi meyarlar nəzərə alınmaqla metodologiyasının hazırlanması;

7.11.7. İstifadəçilərin işçi stansiyalarındakı proqramlarının mütəmadi yenilənməsinə nəzarətin artırılması məqsədilə MS WSUS server qurması (Update və hotfix-a kompleks nəzarət);

7.11.8. Əsas avadanlıqların və məlumat bazalarının avtomatlaşdırılmış monitorinqi prosesinin tətbiqi (server avadanlıqlarının, kommunikasiya və rabitə xətlərinin yüklənməsi, şəbəkənin buraxıcılıq qabiliyyəti, prosessorun emal gücü əmsalı);

7.11.9. İnformasiya sistemlərinin fövqəladə hallarda əməliyyatlarının davamlılığı-bərpası (ƏDP) planının hazırlanması;

7.11.10. Ehtiyat mərkəzində tam testin və test ssenarilərinin keçirilməsi;

7.11.11. Bankda informasiya təhlükəsizliyi üzrə özünü qiymətləndirmə, boşluqların təhlili və nüfuzetmə testlərinin keçirilməsi;

7.11.12. Elektron arxiv daşıyıcıları ehtiyat mərkəzə köçürülməsi, qeydiyyatı və təhlükəsizliyinin təmini;

7.11.13. Bankın şəbəkəsində qoşulmaların dayanıqlılığı və iş prosesinin kəsilməzliyin təmini üçün ehtiyat kommutator qurğusunun quraşdırılması.